# Qanlı-qadalı günlər...

## Naxçıvanda: 99 il əvvəl

*... 1918-ci ildə İrəvan xanlığı ərazisi erməni daşnak liderlərinə 99 ilə icarəyə veriləndə onlar Anadolu, Naxçıvan, Qarabağ iddialarından əl çəkəcəklərini də öhdəliyə götürmüşdülər. Lakin ermənilik xisləti onları xəyanət yoluna çəkdi.*

*Azərbaycanlıları silah gücünə ata-baba torpaqlarından çıxarıb "Türksüz Ermənistan" yaratdılar. Qarabağa, Zəngəzura, Naxçıvana hücum çəkdilər.*

*Hətta Türkiyədə Türk xalqına qarşı soyqırımı təşkil edən, soyğunçu, qəddar, "tayqulaq Andranik paşa" 99 il əvvəl Naxçıvanda hakimiyyəti ələ almağa cəhd göstərmişdi. O, Türk ordusunun təqibindən İran ərazisinə keçib Maku, Xoy, Səlmas şəhərlərini, qəsəbə və kəndləri dağıdaraq, dinc əhalinin var-yoxunu taladı, qətliam təşkil etdi. Lakin ona qədim Naxçıvanı işğal etmək nəsib olmadı. Muradı gözündə qaldı.*

*Oxuculara təqdim etdiyimiz "Qanlı-qadalı günlər..." oçerki hadisələrin canlı şahidi olan qocaman müəllim və tədqiqatçı alim Lətif Hüseynzadənin xatirəsi əsasında qələmə alınmışdır.*

**T.ƏHMƏDOV.**

***(əvvəli 23 aprel, 14 və 31 may tarixli saylarımızda)***

General Kazım Qarabəkir Paşa ordusu ilə Naxçıvanı tərk edəndən sonra daşnak Ermənistan hökuməti Araz-Türk Cümhuriyyətinin himayəsində olan bölgələrdə təxribat törədir, əhaliyə dinclik vermirdi. Daşnak qoşunlarının Naxçıvana hücum edəcəklərindən narahat olan xanlar, İran hökumətinə güvənməyi, hərbi yardım üçün müraciət etməyi təkidlə tələb edirdilər. Lakin Cəfərqulu xan razılaşmırdı. Bu ağır vəziyyətdə Naxçıvanın etibarlı, inamlı, dayaq ola biləcək bir ölkənin ilə qarşılıqlı əlaqəsinə böyük ehtiyac vardı.

Ölkə təhlükə qarşısında idi. 1919-cu ilin yazında havaların xoş keçməsi elə bil ki, düşmənin fəallaşmasına şərait yaratmışdı. Ona görə təcili tədbirlər həyata keçirmək vacib idi. Cəfərqulu xanın təklifi ilə Bakıya Azərbaycan Cümhuriyyətinə ilk nümayəndə heyətinin göndərilməsi qərara alınmışdı. Araz-Türk Cümhuriyyətinin xarici işlər naziri Bəhram xanın başçılığı ilə hökumət üzvləri - Mirzəabbas Qədimov, Əli Səbri Qasımov və xalq nümayəndəsi Hüseyn Cavid Bakıya getmişdilər. Ertəsi gün "Azərbaycan" qəzeti 9 mart 1919-cu il tarixli nömrəsində yazırdı: "Cavid Əfəndi həzrətləri şəhərimizə varid olmuşdur. Dün idarəmizə təşrif gətirmişdi. Hüseyn Cavid əfəndi üç yoldaşı ilə Araz-Türk Cümhuriyyəti və milləti-ümumi rəyi ilə Azərbaycanın bir qismi elan edilmiş olan Cənubi Qərbi Qafqaz tərəfindən müəyyən vəkalət və vəzifə ilə gəlmişdi"(səh.61)

Naxçıvanın ilk rəsmi nümayəndə heyəti Azərbaycan dövlət başçısı Fətəli xan Xoyski ilə görüşmüş, ona Naxçıvanın ağır ictimai-siyasi və iqtisadi vəziyyəti, türk-müsəlman kəndlərinin əhval-ruhiyyəsi, mübarizə əzmi barədə ətraflı məlumat vermişdi. Əli Səbri daşnak Ermənistan hökumətinin Naxçıvanətrafı müsəlman kəndlərində soyqırım siyasəti haqqında tükürpədən əhvalatlar danışmışdı.

Fətəli xan Xoyski nümayəndələrin çıxışını axıradək səbirlə dinləyib sonda qəti fikrini bildirmişdi: "Naxçıvan Azərbaycanın ayrılmaz hissəsidir. Naxçıvanı heç vaxt tək buraxmayacağıq. Naxçıvanın hərbi qüdrətini artırmaq üçün, xalqın iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün onlara hər cür maddi və mənəvi yardım edəcəyik". (səh. 60)

Azərbaycan Xalq Cümhuriyyəti ölkədə ictimai-siyasi qarışıqlıq dövründə çətinliyə baxmayaraq, Naxçıvana nəzərdə tutulan köməyi təcili göndərsə də, daşnak hökumətinin və onların havadarlarının yaratdıqları blokadanın ucbatından Naxçıvana çatmadı.

Bir aydan sonra ingilis generalı Devi öz ordusu ilə Naxçıvana təşrif gətirdi. Yeni təyin olunmuş qubernator vəzifəsini yerinə yetirdiyi ilk gündən yerli hökumətlə sıx əlaqə yaratdı, onu müşayiət edən cangüdən əsgərlərlə şəhər məhəllələrində görünməyə, camaatla xoş ünsiyyət qurmağa başladı. General Devi inzibatçılıq etmir, yerli hökumətin dinc quruculuq və idarəçilik işlərinə qarışmır, özünü əmin-amanlığın, sabitliyin tərəfdarı kimi göstərirdi.

General Devi yerli hökumətin və camaatın ciddi etirazına baxmayaraq, "böyük dövlətlərin qərarı ilə Naxçıvanın və onun tabeliyində olan bütün bölgələrin" daşnak Ermənistanın tabeliyinə keçməsinə çalışdı. O, diplomatik yolla daşnak Ermənistan hökumətinin inzibati idarələrinin Naxçıvanda yaranmasına nail oldu. Kazarmalarda daşnak hərbi hissələri də yerləşdirildi.

Daşnaklar şəhər "təhlükəsizlik məramı" ilə qayda-qanun yaratdılar. Əslində şəhər əhalisini nəzarətdə saxlamaq məqsədilə Naxçıvan şəhərinin məhəllələrində, "Böyük bağ"da, teatr binasında, mərkəzi meydanda gözətçi məntəqəsi yaratdılar.

Erməni hakim dairələri ingilislərin köməyi ilə Naxçıvan şəhərinə daxil olmağın, gözətçi məntəqələri yaratmağın hələ ölkənin işğalı olmadığını anlayırdılar və təbii ki, bu daşnak Ermənistan hökumətini qane etmirdi.

Onlar əlverişli şəraitdə fürsəti əldən verməyib ölkənin işğalını başa çatdırmaq üçün təcili tədbirlər həyata keçirməyə girişdilər. Əhalidən silahları yığmağa, erməni qaçqınlarını yerləşdirmək bəhanəsi ilə bir neçə müsəlman kəndini bir kəndə toplamağa çalışdılar. Onlar əhalini tərk-silah etmək, soyqırım əməliyyatı keçirib müsəlmanları məhv etmək, bütün bölgələrə erməniləri yerləşdirmək istəyirdilər.

Əhali hər yerdə daşnak əsgərlərinə müqavimət göstərir, onlara tabe olmurdu. General Devi tez-tez münaqişə törədən daşnak əsgərlərindən narazı idi. Onların dinc əhaliyə qarşı qərəzli münasibətindən xoşlanmırdı. General Devi qarşısıalınmaz təhlükənin yaxınlaşmasını hiss edirdi. İngilis ordusu Naxçıvanı gözlənilmədən tərk etdi. Araz-Türk Cümhuriyyətinin başçıları gizli məşvərət keçirib xalqı və ölkəni fəlakətdən xilas etmək üçün mütərəqqi ziyalıların, ruhanilərin köməyi ilə könüllü silahlı dəstələri səfərbər etməyi, general Kalbalı xanın, Xəlil bəyin və Veysəl bəyin komandanlığı altında hərbi hissələri İbrahim Xəlil Axundlunun, Kalba Muxtarın və Kalba Kərimin taboru ilə birləşdirib döyüşkən vəziyyətə gətirməyi qərara aldılar.

Cəfərqulu xanın məsləhəti ilə daşnak ordusunun komandanı general Vartsamyanın qəbuluna nümayəndə heyəti göndərildi. Onlar general Varsamyana daşnak ordusunun Naxçıvanı tərk etməsi barədə yerli hökumətin ultimatumunu təqdim etdilər.

Ultimatum gombul, qırmızısifət erməni generalını təbdən çıxardı. O, kreslodan sıçrayıb otaqda əsəbi halda gəzişdi, "necə yəni tərk edin? - deyə qışqırdı: — Siz kimsiniz!.." Sonra ciddi tonla dedi:

— Gedin bütün silahlarınızı yığıb təhvil verin. Türk zabit və əsgərlərini toplayıb hökumətə təslim edin. Əks təqdirdə mən bu bölgədə bir müsəlman türkü qoymayacam qalsın" (səh.64).

Bu görüşdən sonra ötən bir neçə günün sakitliyi tufandan qabaqkı anlaşılmaz vahimə duyğusunu xatırladırdı. Hamı daxili sıxıntı içində gözləyirdi.

1919-cu il iyul ayının 7-də səhər erkən Naxçıvan şəhərinin "Böyük bağ"dakı daşnak hərbi düşərgəsindən müsəlman məhəllələrinə doğru hücum başlandı. Atəş səslərindən bütün şəhər əhli oyandı.

General Vartsamyan bir həmlə ilə müsəlmanların yaşadıqları məhəlləni darmadağın edəcəklərinə əmin idi. Lakin məhəllələrdən şiddətli yağmur kimi yağan güllələr daşnak əsgərlərinə göz açmağa, başını gizlətməyə imkan vermədi. Onlar çoxlu itki ilə geri çəkilməyə məcbur oldular.

Araz-Türk Cümhuriyyətinin ordusu, türk alayı və könüllü döyüşçülər taboru general Kalbalı xanın, türk generalları - Xəlil bəy və Veysəl bəyin komandası altında "Böyük bağ"dakı daşnak düşərgələrini darmadağın edib xeyli hərbi sursat ələ keçirdilər. Erməni hərbi kazarmaları mühasirəyə alındı. Beləliklə, daşnak ordusunun inzibati idarələrə və evlərə talanç hücumunun qarşısı alındı. Naxçıvan ətrafında olan erməni kəndində yerləşən daşnak piyada alayı İbrahim Xəlil Axundlu, Kalba Muxtar və Kalba Kərim kimi fədakar komandirlərin başçılıq etdikləri taborların döyüşçüləri tərəfindən mühasirəyə alınmışdı. İyulun 13-dək qanlı döyüşlər gecə-gündüz ara vermədən davam etdi.

General Vartsamyanın uğursuzluğunu görüb bir dəstə cangüdənlə aradan çıxması müqavimət göstərən daşnak əsgərlərini təslim olmağa vadar etdi.

Araz-Türk Cümhuriyyətinin ordusu daşnak ermənilərin Naxçıvanda 70 günlük dərəbəyliyinə son qoydu. Ölkənin aydın səmasını çulğayan fəlakət buludlarını dağıtdı.

Hökumət iqamətgahı üzərində göylərə ucalan ay-ulduzlu al bayraq yenidən əzəmətlə dalğalandı.

---

### Bakı Mühəndislik Universitetində

## Əməkdaşların uğuru

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 8 noyabr 2016-cı il tarixində yaradılmış Bakı Mühəndislik Universiteti az bir zamanda bir çox yeniliklərə imza atmışdır. Bu günlərdə bu yeniliklərə daha biri əlavə edilmişdir. Universitet əməkdaşları: Maliyyə kafedrasının müdiri dos. Elçin Süleymanov ilə Beynəlxalq Münasibətlər kafedrasının əməkdaşları dos. Ceyhun Mahmudov və Nurtac Vidadilinin birgə yazdığı "Transition to renewable energy and sustainable energy development in Azerbaijan" dünyanın enerji sahəsində ən reytinqli jurnallarından olan "Renewable and Sustainable Energy Reviews" jurnalında nəşr olunmuşdur.

Qeyd edək ki, məqalə bu il ərzində bu jurnalda dosent Elçin Süleymanovun nəşr olunan ikinci məqaləsidir. "Renewable and Sustainable Energy Reviews" Oksford, Böyük Britaniyada nəşr olan Elsevier elmi platformu jurnalıdır. Enerji sahəsində ən nüfuzlu nəşrlərdən hesab edilən bu jurnalın impact faktoru 10-a yaxındır. Nəşr olunduğu tarixdən hər iki məqalənin mövzusu Azərbaycanın enerji problemlərini tədqiq etməkdir.

Qeyd edək ki, BMT Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının bir neçə layihəsində Azərbaycanı təmsil edən Elçin Süleymanovun Təhsil Nazirliyi tərəfindən ali məktəblər üçün nəşr hüququ (qrifli nəşr) verilən bir dərslik, üç dərs vəsaiti və dörd fənn proqramının, 30-dan çox müxtəlif ölkədə nəşr olunan yüzə yaxın elmi tədqiqatın müəllifidir.

## Müəssisələrlə Əlaqələr və Karyera Departamenti fəaliyyətini genişləndirir

Əmək bazarının tələblərinə uyğun keyfiyyətli kadr ehtiyacları universitet və sənaye arasında olan əməkdaşlığın artmasına təkan verən amillərdən biridir. Məhz bu məqsədlə qurulan Müəssisələrlə Əlaqələr və Karyera Departamentinin əsas funksiyası iş dünyası ilə olan əlaqələri inkişaf etdirib, universitetlə şirkət arasında əməkdaşlıq çərçivəsində müqavilə bağlayıb tələbə və məzunların işlə təmin olunmasına köməklik göstərməkdir. Buna görə Departamentin təşkilatçılığı ilə universitet nümayəndələrimiz ilə yerli və xarici şirkətlərin nümayəndələri arasında görüşlər keçirilir. Görüşlər zamanı tələbə və məzunları bu şirkətlərdə təcrübə, iş imkanları, şirkət nümayəndələrinin universitetdə praktiki dərs keçmələri, müəllimlər tərəfindən şirkət nümayəndələrinə istiqamətli təlimlərin keçirilməsi, gəzintilərinin təşkili və sair əlaqələrin inkişafı yolları müzakirə olunur. Bu istiqamətdə Ayan MMC, Azersun Holding, Azertexnolayn MMC, Aztexnika, Coca-Cola Bottlers LTD, Embawood MMC, FAB Boya və Kimya Sənayesi MMC, Gilan Holdinq, Nurgün Şirkətlər Qrupu, Veysəloğlu Şirkətlər Qrupu, Zəhmət Ruzi MMC şirkətlərinin nümayəndələri ilə görüşlər keçirilmişdir. Veysəloğlu Şirkətlər Qrupunun prezidenti və universitetin rektoru arasında əməkdaşlıq müqaviləsi imzalanmışdır.

Bu tədris ilinin 2-ci yarım ilində tələbələr Azərbaycan Coca-Cola Bottlers MMC, FAB Boya və Kimya Sənayesi MMC-nin, Heydər Əliyev adına Neft Emalı Zavodunun qonağı olublar. Şirkət nümayəndələri tərəfindən tələbələrə şirkətin tarixi haqqında məlumat verilib və istehsal prosesi əyani şəkildə göstərilib.

Departament universiteti 305 tələbəsinə yay tətili müddətində bir aylıq istehsalat təcrübəsini təmin etmək üçün müəssisələrlə yaxından əməkdaşlıq edir.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**